# «Qızıl ayı»nı Berlindən İrana azəri «taksi» sürücüsü apardı

Berlin festivalının münsiflər heyəti uzun illərdən bəridir ki, bu dəfə neçə yol ayrıcında qalmadı. Əvvəlki festivallarda qalib barədə xeyli mübahisələr qopurdu. Bu dəfə isə amerikan kinorejissoru Darren Aranofskinin rəhbərliyi etdiyi jüri həqiqi sənətin əsl dəyərini verdi.

O gün Berlinale-Palas salonundakı bəlkə də ən xoşbəxt insan — İran rejissoru Cəfər Pənahinin 10 yaşlı bacısı qızı Hanna Sayedi oldu. Jüri sədri Darren Aranofski Berlin festivalının qalibini — yəni Cəfər Pənahinin "Taksi" filmini elan edən kimi, Hanna Sayedi səhnəyə qalxdı, mikrofona bir söz demədən hönkürdü. Jüri üzvləri uşağı güclə sakitləşdirdilər. Qısaca bir aradan sonra Hanna artıq münsiflər heyətinin ağuşunda idi. Bunun özü elə bir film süjetidir...

Hələ festival başlamamışdan "Taksi" filmini görənlər onun qalib gələcəyinə əmin idi. Öz vətənində sənətinə yasaq qoyulduğundan Cəfər Pənahi o vaxtdan bəri nə çəkirsə, əcnəbi kinofestivallara təqdim olunur və bir-birinin ardınca mükafatlar qazanır.

1995-ci ildən başlayaraq, C.Pənahinin "Bəyaz şar", "Ayna", "Dairə", "Qırmızı qızıl", "Ofsayd", "Bu film deyil", "Pərdə" filmləri Lokarno, Venetsiya və buna qədərki Berlin festivalında yüksək mükafatlara layiq görülübdür.



kinorejissor Cəfər Pənahi

"Bu film deyil" adlı sənədli filmi isə 2013-cü ildə Oskar mükafatına namizəd seçilən 15 filmin arasında olub.

"Taksi" filmi Tehran küçələrinə səyahət üstündə qurulub. Sükan arxasındakı isə baş rolun ifaçısı Cəfər Pənahinin özüdür. Süjet belədir ki, sürücü taksiyə əyləşən müxtəlif sərnişinlərlə söhbətləşir. İlk baxışda film sənədli kimi görünür. Amma dəqiqələr ötdükcə, bunun çox əla bir tapıntı olduğunu başa düşürsən. Taksidəki söhbətləri də təsadüfi saymaq düzgün olmaz. Məktəb müəllimesi ilə xırda alverçi — edam cəzasından danışır; vəkil — kollegiyanın haqsızlığından deyinir, avtomobil qəzasına uğrayan kişi elə telefondaca öz vəsiyyətini kiməsə diqtə eləyir. Bunların arasında dildən ən pərgarı elə rejissorun bacısı qızıdır ki, məktəbdən ona ölkənin kino sənayesi barədə xırdaca bir film çəkmək tapşırılıbdır. Qız öz kamerasını şəhərin küçələrinə tuşlayanda aydın olur ki, məktəbin diqtə elədiyi qaydalar çərçivəsində əsl film çəkmək demək olar ki, mümkün deyilmiş.

Cəfər Pənahi 1960-cı il iyulun 11-də İranın Şərqi Azərbaycan ostanına aid Miyanə şəhərində dünyaya gəlib. 2009-cu ildəki etiraz aksiyalarında iştirak etdiyinə görə Cəfər Pənahi 6 il müddətinə həbs olunmuşdu və 20 il ərzində ona ölkəni tərk etmək, daxili və xarici KİV-lərə müsahibə vermək yasaq edilib.

2012-ci ilin oktyabr ayında Avropa Parlamenti onu Andrey Saxarov adına "Düşüncə azadlığı" mükafatına layiq görüb. Rejissorun özü o mərasimdə də iştirak edə bilmədiyinə görə, həmin mükafat onun qızı Solmaz Pənahiyə təqdim olunub...

Nə yaxşı ki, bu yaxınlarda Cəfər Pənahi 200 min dollar zəmanət müqabilində həbsdən buraxılıb. Amma ölkədən çıxmamaq qadağası yenə onun üstündədir...